

# AZƏRBAYCANIN XİLASKARI ULU ÖNDƏR

**El arasında bele bir deyim var: ”İnsan var ev üçün, insan var el üçün dünyaya gəlir”. Bir də deyirlər ki, Ulu Tanrı bəşər övladının düçar olduğu sıxıntıdan, üzləşdiyi bəladan xilas olması üçün hər əsrdə ona bir dahi şəxs bəxş edir. Bu baxımdan Azərbaycan xalqı Tanrıya daha yaxın olan xalqdır. Ulu Tanrının Azərbaycan xalqına bəxş etdiyi belə bir dahi Ulu Öndərimiz Heydər Əlirza oğlu Əliyev olmuşdur.**

XX əsrdə türkdilli xalqların heç vaxt unutmayacağı iki böyük tarixi şəxsiyyəti-Mustafa Kamal Əlirza oğlu Atatürk və Heydər Əlirza oğlu Əliyev Tanrının bir millət iki dövlətə bəxş etdiyi nəhəng simalardır. Bu iki şəxsiyyətin keçdiyi yollarda tale oxşarlıqları da var. Tarixi çiyinlərində yüksəldən bu iki nəhəng türkün adı əbədiyyətə həkk olunub.

XX əsrdə (1918-ci ildə) ilk dəfə türkdilli xalqların müstəqil dövləti Azərbaycanda qurulub. Əfsuslar olsun ki, bu dövlət 23 aydan sonra süqut etdi. Buna səbəb isə yeni qurulmuş dövlətin idarə olunmasında başqa millətlərin nümayəndələrinin çoxluğu və milli kadrların azlığı idi. Amma 1923-cü ilin oktyabr ayında Əlirza oğlu Mustafa Kamal Atatürk Türkiyə Respublikasını qurdu, qorudu və inkişaf etdirdi. 1923-cü ildə Xalq Partiyasını yaratdı və ömrünün axırına kimi bu partiyanın sədri oldu. Məhz həmin ildə-yəni 1923-cü ildə Heydər Əlirza oğlu Əliyevin dünyaya gəlişini Yaradanın Azərbaycan xalqına bəxşişi kimi qəbul etmək olar. Keçən əsrin əvvəllərində Mustafa Kamal Türkiyə dövlətinin müstəqilliyini dönməz etdi. Beləliklə, XX əsrdə bir millətin iki müstəqil dövləti yarandı. Tarixdə baş vermiş heç bir hadisənin üstündən xətt çəkmək olmaz. Onu öyrənmək, təhlil etmək lazımdır və gələcək nəsillərə çatdırmaq məqsədəuyğundur. Türkiyə və Azərbaycan dövləti arasında dostluq və qardaşlıq telləri həmişə möhkəm olub və bu gündə tellərin daha da möhkəmliyi göz önündədir.



*Tamilla Naibova,*
*ADNSU-nın dosenti,*
*k.ü.f.d.*

Bu qardaşlıq tellərinin möhkəmliyi Atatürkün sağlığında Azərbaycana olan xüsusi münasibətlərdə öz əksini tapıb.O dövrdə Azərbaycan üçün çox əhəmiyyətli olan Qars və Moskva müqavilələrini məhz Mustafa Kamal imzalamışdı. Təxminən 70 il sonra AXC-Müsavat iqtidarı Naxçıvan Muxtar Respublikasının statusunun ləğv edilməsini istəyirdi.Ermənilər isə Naxçıvanı da işğal etməyə çalışırdılar. O vaxt Naxçıvan MR-nın Ali Məclisinin sədri işləyən Heydər Əliyevin 1992-ci ilin mart ayında Türkiyəyə səfəri zamanı Qars-Moskva müqavilələrinə dayaqlanan ”Türkiyə Naxçıvanın ərazi bütövlüyünün təminatçısıdır” müddəası bir daha gündəmə gətirildi. O vaxt Türkiyənin baş naziri olan Süleyman Dəmirəl bəyan etdi ki, Qars və Moskva müqavilələrinə görə Naxçıvan MR statusunda bir dəyişiklik edilərsə, Türkiyə burada söz sahibidir.

Ulu Öndərin Novruz bayramı ərəfəsində Türkiyəyə gedərək həmin müqaviləni bir daha yada salması çoxlarına dərs oldu. Yerli əhalinin isə ümidini artırdı, sevincinə səbəb oldu. İlham Əliyev cənablarının dediyi belə bir kəlam yada düşür: ”Heydər Əliyev naxçıvanlıları, naxçıvanlılar da Heydər Əliyevi qorudu”.

Ümumiyyətlə, Heydər Əliyevin dövlət quruculuğunda, müstəqilliyimizin əbədiləşdirilməsində və digər taleyüklü məsələlərin həllində atdığı bele addımların böyük tarixi əhəmiyyəti olub. Azərbaycan xalqı üçün canından keçməyə hazırolan Ulu Öndər, ölkəmizin çiçəklənməsinə, inkişafına, müstəqilliyinə, bu müstəqilliyin əbədi olmasına nail olmaq üçün nəinki illəri, günləri, saatları, hətta dəqiqələri və saniyələri belə hədər keçirməyib. O, həmişə azərbaycanlı olması ilə fəxr edir. SSRİ-nin fəxri kürsüsündə əyləşdiyi və fəaliyyət göstərdiyi zamanlarda bele, onu Azərbaycana məhəbbəti, azərbaycançılıq hissləri bir anda olsa belə, tərk etməyib. Vətəninə, xalqına, millətinə məhəbbət, müstəqil Azərbaycan Respublikasına hədsiz məhəbbət onun həyatının mənası,məzmunu idi. Müstəqil Azərbaycanımızın varlığını bütün dünyaya bəyan etdi. Adı müasir tariximizə qızıl hərflərlə yazılan Heydər Əliyev ”Liderlərin Lideri”idi. Liderlərin lideri olmaq üçün o, hərtərəfli təhsil almışdır. Naxçıvan Pedaqoji Texnikumunda müəllimliyin sirlərini, Azərbaycan Sənaye İnstitunun memarlıq fakültəsində memarlığın sirlərini, Azərbaycan Dövlət Universitetində tariximizi, Leninqradda xüsusi ali təhsilin sirlərini yüksək səviyyədə mənimsəyib.

İkinci dəfə müstəqilliyini bərpa edən Azərbaycanımızın yenidən süqut etməsinin qarşısının alınmasında 3 oktyabr 1993 - cü ildə keçirilən prezident seçkiləri Müstəqil Azərbaycan dövləti üçün qurtuluşa aparan yolun ilk pilləsi oldu . Adına və xalqına sadiq qalmış Ulu Öndər vətəninin və xalqının ən ağrılı günlərində xilaskarlıq missiyasını yerinə yetirdi. Yenicə müstəqilliyini bərpa edən ölkəmizdə hərmərcliyə, özbaşınalığa və qeyri - peşakar idarəetməyə son qoydu. Müstəqil Azərbaycanın hüquqi və siyasi - iqtisadi suverenliyinin təmin olunması prosesini əsaslı şəkildə sürətləndirdi.

Ulu Öndərimiz Heydər Əliyev Məmməd Əmin Rəsulzadənin ”Bir dəfə yüksələn bayraq bir daha enməz!” kəlamını unutmadı və onunda ruhunu şad etdi. Artıq üç rəngli bayrağımız möhtəbər yerlərdə və nüfuzlu tədbirlərdə dalğalanır və heç vaxt enməyəcək!

Ulu Öndərin həyat yolu Şərqdən başladı və Qərbin siyasi təfəkkür mərkəızlərindən keçdi. Müasir dünyanın ən böyük siyasətçiləri-nüfuzlu Amerika analitikləri, Avropa parlamentariləri, görkəmli dövlət xadimləri onu dəstəklədi,onun görüşünə gəldilər. Zaman Heydər Əliyev siyasətinin alternativi olmadığını sübut etdi. ”Liderlərin Lideri” Ulu Öndərin siyasətinin Prezident İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilməsini xalqımız aydın görür və onu ətrafında sıx birləşir.

Ulu Öndərin layiqli davamçısı olan İlham Əliyev cənabları onun qurub-yaratdığı dövləti daha da möhkəmləndirdi, 30 il işğal altında olan ərazilərimizin 44 gün ərzində azad olunmasında vətənpərvər igidlərimizin və xalqımızın onunla birgə olması Müstəqil Azərbaycanımızın nüfuzunun daha da yüksəlməsinə səbəb oldu.

Ulu Öndərin arzularının tam yerinə yetirilməsi haqda daim düşünən Ali Baş Komandanımız , əvəz olunmaz prezidentimiz ”Nəyi nə vaxt və necə etməyi mən özüm bilirəm !” deməsi xalqımızı daha da ruhlandırır. Belə bir deyim var:”Ot kökü üstə bitər”. Yeni əsrin yeni lideri-xalqın inandığı İlham Əliyev cənabları da dünya siyasətçilərinin qəbul etdiyi ictimai xadim, alternativsiz liderdir. Ulu Öndərin dediyi kəlamlar öz təsdiqini artıq tapıb: ”Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm. İnanıram ki,mənim axıra çatdıra bilmədiyim işləri İlham Əliyev başa çatdıracaq”.

29 sentyabr 2022 - ci ildə Müstəqil Azərbaycanımızda 2023-cü ilin ”HEYDƏR ƏLİYEV İLİ” elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Sərəncam imzalamışdır. İnşallah 2023 - cü ildə Ali Baş Komandamızın sayəsində Ulu Öndərin bütün arzuları gerçəkləşəcək və ruhu şad olacaq.